| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 08.05.2017 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1371 |
| **ADI** | Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət sirrinə aid edilən məlumatların Siyahısı”nda dəyişikliklər edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 14-05-2017, Nəşr nömrəsi: 102), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-05-2017, Nəşr nömrəsi: 05, Maddə nömrəsi: 775) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 14.05.2017 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 350.050.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 13201705081371 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 11.05.2017 |

**Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanına və "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005,   6, maddə 485; 2006,   11, maddə 948; 2008,   11, maddə 969; 2009,   4, maddə 226,   10, maddə 785; 2010,   2, maddə 80; 2012,   12, maddə 1242; 2013,   5, maddə 494,   12, maddə 1538; 2014,   2, maddə 112,   6, maddə 644,   9, maddə 1027; 2016,   2 (II kitab), maddə 251,   8, maddə 1384) ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. I hissənin 2-ci bəndinin on birinci abzasında "MTN - Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi" sözləri "DTX - Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə, on altıncı abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on yeddinci abzas əlavə edilsin:

"XKX - Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti.".

2. II hissənin 1-ci – 5-ci bəndlərində, III hissənin 8-ci – 10-cu bəndlərində, IV hissənin 12-ci – 17-ci, 21-ci – 25-ci, 29-cu, 30-cu bəndlərində, V hissənin 32-ci – 39-cu bəndlərində "MTN," akronimi "DTX, XKX," akronimləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 may 2017-ci il
1371